**AR Məhkəmə-Hüquq Şurasının Sədri,**
**Cənab Məmmədov Fikrət Fərrux oğluna**

Məlumat üçün surəti:

AR Ədliyyə Naziri
Cənab Məmmədov Fikrət Fərrux oğluna

AR Baş Naziri
Cənab Əsədov Əli Hidayət oğluna

Səbail Rayon Məhkəməsinin sədri
Cənab Qafarov Ağamalı Məmməd oğluna

AR Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Sədri
Cənab Bağırov Anar Ramiz oğluna

19 fevral 2021-ci il                                                                                    Bakı ş.

**Hörmətli cənab Sədr,**

İlk növbədə, şəxsən Sizin, AR Məhkəmə-Hüquq Şurası əməkdaşlarının və hər birimizin, birbaşa və dolayı xidmətimiz olduğu, ölkəmizin tarixi və möhtəşəm qələbəsi münasibəti ilə Sizi və kollektivinizi ürəkdən təbrik edirəm.

Bu məktub vasitəsi ilə, Rəhbərliyiniz altında Azərbaycan Respublikasında Məhkəmə hakimiyyətinin fəaliyyəti nəticəsində insan hüquq və azadlıqlarının təmin olunması istiqamətlərində nəzərə çarpan irəliləyişləri bir vətəndaş olaraq qiymətləndirmək və bu görə minnətdarlığımı bildirmək istərdim. Bu gün Azərbaycan məhkəməsi ölkəmizi, cəmiyyətimizi və dövlətçiliyimizi gücləndirən tərzdə şəffaf və obyektiv fəaliyyəti nəticəsində vətəndaşlarımız arasında respublikada qanunun aliliyinə inamının və dövlətə olan etimadın daha da möhkəmlənməsi əyani olaraq göz qabağındadır.

Hesab edirəm ki, Azərbaycanda və Qərb ölkələrində müxtəlif iri müəssisələrdə rəhbərlik təcrübəm, sosial, peşə və əmək mövzularında beynəlxalq elmi proqramlar və araşdırmalarda iştikarım, və eləcə də həmkarlarımla 2021-ci ilin yanvar ayı ərzində Səbail Rayon Məhkəməsinin fəaliyyətinin bilavasitə şahidi olaraq, ölkəmizdə məhkəmə institutunun xidmət keyfiyyətinə obyektiv qiymət verməyimə müəyyən dərəcədə zəmin yaradır.

Belə ki, beynəlxalq şirkət tərəfindən Azərbaycanda təsis edilmiş müəsisənin direktoru olaraq mən və əməkdaşlarım işəgötürən tərəfindən haqsız və qanunsuz hərəkətlərə məruz qalaraq əmək hüquqlarının bərpa olunması üçün Səbail Rayon Məhkəməsinə müraciətimiz və eyni zamanda qanuni olan əmək haqqı və təzminatların ödənilməsindən boyun qaçırmaq məqsədi ilə işəgötürən tərəfdən bu təzminatlar və bunlardan irəli gələn məcburi dövlət ödənişlərinin şirkətə vurulmuş maadi ziyan kimi təqdim etməyə cəhd edən əks iddiaya dair keçirilmiş məhkəmə iclasları, dinləmələr, araşdırmalar və çıxarılmış qətnamələrdə hakimlərin yüksək peşəkalığı, ədalətli və qanunla çərçivələnən obyektivliklərinin şahidi oldum.

Fürsətdən istifadə edərək, Bakı şəhər Səbail Rayon Məhkəməsinin Sədri Qafarov Ağamalı Məmməd oğlu, Səbail Rayon Məhkəməsinin Hakimləri Abdullayev Şahin Zülfüqar oğlu, Qafarova Rəna Nazim qızı və Xırdalan şəhər Vəkil Bürosunun Vəkili Fərəcova Qəndab İmran qızına mənim, həmkarlarımın və əminəm minlərlə digər Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması və bərpası istiqamətində nümayiş etdikləri peşəkarlıq və səriştələrinə görə səmimi təşəkkürümü bildirirəm. Bu, bir daha onu göstərir ki, Azərbaycan nəinki tək yerli işəgötürənləri hətta beynəlxalq təşkilatları da fəaliyyət göstərdiyi digər

**Samir Mammadov**
Baku: +994 77 201 1070 Washington DC: +1 202 569 5355 Email: samiralaska@hotmail.com
26 M. Qorki street, apt 1, Baku, Azerbaijan AZ1000
1221 10TH Street NW, Washington DC 20001 USA

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 432
«26» 02 2021 il

ölkələrindən fərqli olaraq işçilərin əmək hüquqlarını tanımağa və hörmətlə yanaşmağa məcbur edir və qanunla qorunan bu hüquqları tam təmin edir.

Yerli və ya beynəlxalq, kiçik və ya nəhəng müəssisədə işlədiyindən asılı olmayaraq əmək və digər hüquqlarının qətiyyətli şəkildə təmin ediləcəyindən əmin olduğum bir ölkənin vətəndaşı olmaq olduqca qürurvericidir.

Son olaraq, ölkəmizdə hüquq müdafiəsi sahəsində əldə olunmuş təqdirəlayiq irəliləyişləri əhali arasında və peşəkar dairələrdə təşviq etmək, bu sahədə ictimai etimadı dahada artırmaq məqsədi ilə bu məktubun ictimailəşdirilməsinə dair münasibət bildirməyinizi xahiş edirik.

Azərbaycanda qanun aliliyinin, hüquq və azadlıqlarının təminatı istiqamətində gördüyünüz gələcək işlərdə Sizə və bütün heyətinizə uğurlar arzulayırıq.

Hörmətlə,

Məmmədov Samir Ramiz oğlu

**Samir Mammadov**
Baku: +994 77 201 1070 Washington DC: +1 202 569 5355 Email: samiralaska@hotmail.com
26 M. Qorki street, apt 1, Baku, Azerbaijan AZ1000
1221 10TH Street NW, Washington DC 20001 USA